# HEYDƏR ƏLİYEV
## VƏ PROKURORLUQ

- 345510 -

Azərbaycan Respublikası
Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

ŞƏRQ-QƏRB

63.3(5Az)6-8+67.401.212(5Az)
Ə65

**Heydər Əliyev və Azərbaycan Prokurorluğu**
Bakı, "Şərq-Qərb", 2023, 468 səh.

ISBN 978–9952–575–07–1

Kitabda Ümummilli lider Heydər Əliyevin müstəqil Azərbaycan Respublikasında prokurorluq orqanlarının inkişafı istiqamətində apardığı fəaliyyətdən və göstərdiyi böyük xidmətlərdən bəhs olunur. Burada həmçinin prokurorluq orqanları əməkdaşlarının Ulu Öndər haqqında xatirələri və Ümummilli Liderin Azərbaycanda prokurorluğun fəaliyyəti ilə bağlı söylədiyi dəyərli fikirlər öz əksini tapmışdır.

Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

ŞƏRQ-QƏRB

www.eastwest.az
www.fb.com/eastwest.az
info@eastwest.az

© Azərbaycan Respublikası Baş Prokurorluğu, 2023

# MÜNDƏRİCAT

ÖN SÖZ ..... 5

I FƏSİL. HEYDƏR ƏLİYEV VƏ HÜQUQİ DÖVLƏT QURUCULUĞU

1.1. Heydər Əliyevin siyasi hakimiyyətinin sovet dövrü: müstəqilliyə doğru milli oyanış ..... 12

1.2. Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ..... 30

1.3. Qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsi Heydər Əliyevin dövlət siyasətinin əsas elementləri kimi ..... 48

1.4. Heydər Əliyev və hüquq siyasəti ..... 64

II FƏSİL. HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN PROKURORLUĞU

2.1. Heydər Əliyev və Azərbaycan Sovet Prokurorluğu ..... 90

2.2. Heydər Əliyev və müstəqil Azərbaycan Prokurorluğu ..... 106

2.3. Azərbaycan Prokurorluğunun müasir fəaliyyətində Heydər Əliyev irsi ..... 142

III FƏSİL. AZƏRBAYCAN PROKURORLUĞUNDA "HEYDƏR ƏLİYEV İLİ"

3.1. Baş Prokurorluq və yuxarı prokurorluqlarda Ümummilli Liderin xatirəsinin anılması ..... 336

3.2. Tabe prokurorluqlarda Heydər Əliyevin zəngin irsinin öyrənilməsi ..... 366

IV FƏSİL. HEYDƏR ƏLİYEV PROKURORLUQ ƏMƏKDAŞLARININ XATİRƏLƏRİNDƏ

4.1. Prokurorluq işçiləri və veteranlarının Ulu öndər Heydər Əliyev barədə müsahibə və məqalələri ..... 382

4.2. Heydər Əliyevin müdrik kəlamları ..... 432

# ÖN SÖZ

Müasir dünyamızın fenomenal və nadir şəxsiyyətlərindən biri, dünya şöhrətli siyasətçi və dövlət xadimi, milli dövlət quruculuğumuzun memarı, Azərbaycan xalqının əbədiyaşar Ümummilli lideri Heydər Əliyevin irsi, keçdiyi həyat yolu, Azərbaycan xalqı qarşısında xidmətlərindən çox yazılsa da, bu bənzərsiz dahi şəxsiyyətin fəaliyyəti müxtəlif alimlər, mütəxəssislər tərəfindən hələ əsrlər boyu dərindən təhlil olunaraq öyrəniləcəkdir. Çünki bu fenomenal liderin fəaliyyəti canından çox sevdiyi xalqının rifahı, vətəninin yüksəlişi ilə yanaşı, bütün bəşəriyyətin xoşbəxt gələcəyi uğrunda mübarizəyə həsr olunmuşdur. Xalqımızın yetirdiyi nadir dövlət xadimlərindən olan bu dahi insanın çoxşaxəli fəaliyyətinə, olduqca zəngin, maraqlı və keşməkeşli ömür yoluna nəzər salanda aydın görürük ki, Heydər Əliyev həyatı boyu həmişə xalqını, vətənini düşünmüş, bir çox siyasi xadimin edə bilmədiyini gerçəkləşdirmiş, müasir dünyanın ən aktual çağırışlarına cavab vermək bacarığı ilə dünya tarixinin görkəmli siyasi xadimləri sırasında öz layiqli yerini tutmuşdur. Heydər Əliyev hələ 1969–1982-ci illərdə rəhbər olduğu dövrlərdə Azərbaycan dövlətinin gələcək müstəqilliyinin siyasi-iqtisadi əsaslarını formalaşdırmışdı. SSRİ-ni lərzəyə salan milli-azadlıq hərəkatının qüdrəti və əzəməti Ulu öndər Heydər Əliyev müdrikliyi və uzaqgörənliyi ilə əsası qoyulmuş milli oyanış, milli dirçəliş, milli özünüdərk prosesi ilə üzvi surətdə səsləşirdi.

Müstəqilliyin qorunmasının onun əldə edilməsindən qat-qat çətin olduğunu bildirən dahi rəhbər Heydər Əliyev dediklərini sözbəsöz həyata keçirərək mürəkkəb tarixi şəraitdə hava, su kimi vacib olan həyati əhəmiyyətli nailiyyətləri əldə etmək və qələbələri qazanmaq üçün bir çox çətinliklərin öhdəsindən məharətlə gəlmişdir.

SSRİ-nin süqutundan sonra Azərbaycanın dövlət müstəqilliyinin bərpası ilə respublikamızın həyatında yeni mərhələnin əsası qoyuldu. Müstəqilliyimizin ilk illərində ölkəyə rəhbərlik edənlərin dövlət idarəçiliyindəki naşılığı bütün sahələrdə özünü büruzə verdi. Müstəqil Azərbaycanın rəhbərliyi köhnə sovet qanunları ilə işləməyə üstünlük verirdi. Ölkədə yaranmış hakimiyyətsizlik şəraitində baş alıb gedən qanunsuzluq, özbaşınalıq, birincilik davası yenicə bərpa etdiyimiz müstəqilliyi addım-addım uçuruma yaxınlaşdırırdı. Müstəqillik yolunda ilk addımlarını atan respublikada kor-koranə dövlət idarəçiliyi daxili qruplaşmaların sayını artırır, nəticədə, anarxiya, xaos daha da şiddətlənirdi. Hüquqi dövlət quruculuğunda heç bir irəliləyiş nəzərə çarpmırdı. Əksinə, vəziyyət getdikcə ağırlaşırdı.

Azərbaycan Respublikasının qeyd olunan hadisələr fonunda təkamül və inkişaf tarixi Ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş bu kitabda öz əksini tapmışdır.

**Kitabın I fəsli "Heydər Əliyev və hüquqi dövlət quruculuğu" adlanır.** Bu fəsil Heydər Əliyevin siyasi hakimiyyətinin sovet dövrünü və müstəqilliyə doğru atılan ilk addımlarını, milli oyanışın başlanmasını, Ulu Öndərin siyasi hakimiyyətə qayıdışını, həmin dövrdə respublikamızda baş verən hadisələri işıqlandırır. Qeyd olunur ki, o vaxt ölkədə kəskin xarakter almış hərc-mərclik, mütəşəkkil silahlı dəstələr, dövlətçiliyə, suverenliyə, ərazi bütövlüyünə, ictimai-siyasi sabitliyin pozulmasına qarşı qəsdlər xalqın əsəblərini tarıma çəkmişdi. Ölkə rəhbərliyi ayrı-ayrı orqanların fəaliyyətini nizama salan qanunlar qəbul etmir, hətta yeni Konstitusiyanın hazırlanması barədə düşünmürdü. Belə bir vaxtda dövlət idarəçiliyində zəngin təcrübəsi, ictimaiyyət arasında nüfuzu olan, insanları arxasınca apara biləcək liderə zəruri ehtiyac yaranmışdı.

Xalqın ümid yeri həmin vaxt Naxçıvan Ali Məclisinin Sədri vəzifəsində çalışan Ulu öndər Heydər Əliyev idi. Ölkənin ziyalıları, ictimai-siyasi xadimləri, zəhmət adamları onunla Naxçıvanda görüşür, respublikamızdakı mövcud vəziyyət barəsində ətraflı məlumat verərək ölkə rəhbərliyinə qayıdışını təkidlə xahiş edirdilər. Ümummilli Liderin xalqın təkidli tələbi ilə hakimiyyətə xilasedici qayıdışından sonra Azərbaycandakı özbaşınalığa, anarxiyaya, siyasi hakimiyyətsizliyə birdəfəlik son qoyuldu.

Bu fəsildə qeyd olunduğu kimi, qanunçuluğun və hüquqi qaydaların möhkəmləndirilməsi

Heydər Əliyevin dövlət siyasətinin əsas elementlərindən idi. Ulu Öndərin qarşıya qoyduğu prioritet vəzifə hüquqi, sivil, dünyəvi dövlət qurmaq idi. Müdrik şəxsiyyət ölkəyə rəhbərlik etdiyi gündən respublikada baş alıb gedən banditizmə və mütəşəkkil cinayətkarlığa qarşı qorxmadan mübarizəyə başladı. Bu qüvvələr ölkədə hüquqi, demokratik, sivil dövlət qurculuğuna hər vasitə ilə mane olurdular. Lakin heç bir qüvvə, mütəşəkkil silahlı dəstələr, qanunsuz silahlı birləşmələr Heydər Əliyevi qorxuda və öz yolundan çəkindirə bilmədi. Təsadüfi deyil ki, Azərbaycanda hüquqi dövlət quruculuğu Heydər Əliyevin adı ilə bağlıdır. Ölkədə müasir hüquq sisteminin qurulması və inkişaf etdirilməsi Ümummilli Liderin dövlətçilik konsepsiyasında xüsusi yer tuturdu. Onun bütün sahələrdə, əsasən, hüquqi, demokratik dövlət idarəçiliyinin yaradılması istiqamətində gördüyü işlər xüsusi qeyd edilməlidir. Təqdim olunan kitabda da bu barədə ətraflı məlumat verilmişdir.

Müstəqillik yoluna qədəm qoymuş respublikada, demək olar ki, qanunçuluq yox dərəcəsində idi, dövlətin inkişafında mükəmməl qanunvericilik bazasının yaradılması, qanunun aliliyinin təmin edilməsi mühüm şərt idi. Azərbaycanın hüquq sisteminin müxtəlif aspektlərinin, o cümlədən Konstitusiya hüququnun inkişafı, insan hüquqlarının müdafiəsi, Konstitusiya nəzarəti, demokratik ədalət mühakiməsi prinsiplərinə əsaslanan yeni üçpilləli məhkəmə sisteminin formalaşdırılması, milli qanunvericiliyin təkmilləşdirilməsi, Avropa standartlarına cavab verən yeni qanunların qəbul edilməsi prosesi Ümummilli Liderin geniş miqyaslı hüquqi islahatlarının tərkib hissəsi oldu. Bu məqamlar kitabın birinci fəslində daha müfəssəl şəkildə öz əksini tapmışdır. Müdrik şəxsiyyət 1993-cü ildə qarşıya qoyduğu vəzifələri belə bəyan etmişdir: "Azərbaycan Respublikasında demokratik, hüquqi dövlət qurulmalıdır. Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir, öz tarixi, milli ənənələrindən bəhrələnərək, dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək demokratik dövlət quruculuğu yolu ilə getməlidir".

O vaxt hakimiyyəti ələ keçirmək istəyən müəyyən qüvvələr ölkədə ciddi qayda-qanun yaradılmasına, hüquqi, demokratik dövlət quruculuğuna bütün vasitələrlə mane olur, ətraflarına topladıqları qeyri-qanuni silahlı birləşmələrlə əhali arasında xof yaradır, özlərini hamıdan ağıllı və güclü hesab edirdilər. Həmin qüvvələr müxtəlif vaxtlarda iki dəfə dövlət çevrilişinə cəhd etdilər. Lakin Ulu öndər Heydər Əliyevin müdrikliyi, qətiyyəti və xalqla həmrəyliyi sayəsində ölkəmizdə 1994-cü ilin oktyabr, 1995-ci ilin mart dövlət və hərbi çevrilişlərinə cəhdlərin qarşısı alındı.

Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra prokurorluq orqanlarının fəaliyyətində yeni bir dövr başlamışdır. Prokurorluq demokratik cəmiyyətə uyğun yenidən qurulmuş, onun əsas funksiyası cinayət təqibini həyata keçirmək və çəkişmə prinsipinə müvafiq olaraq dövlət ittihamını müdafiə etməkdən ibarət olmuşdur.

Qeyd olunanlar **kitabın "Heydər Əliyev və Azərbaycan Prokurorluğu" adlanan II fəslində** işıqlandırılır. Bu fəsildə yeni Konstitusiyanın yaradılmasından, ölüm hökmünün ləğv edilməsindən, əfv və amnistiya institutlarının tətbiqindən söhbət açılır. Bu fəsil həmçinin yeni Cinayət-Prosessual Məcəllənin, Konstitusiya Məhkəməsinin təsis edilməsi, İslahat Komissiyasının fəaliyyəti, məhkəmə islahatından, "Məhkəmələr və hakimlər haqqında" yeni qanundan, Məhkəmə-Hüquq Şurasının, Ombudsmanın təsis edilməsindən, insan hüquqları sahəsində əsas konvensiyalara qoşulmadan, Avropa Məhkəməsinin yurisdiksiyasına daxil olmadan, insan hüquqları sahəsində Avropa təsisatları ilə əməkdaşlığa dair yeni məcəllələrin, polis, vəkillik fəaliyyəti haqqında və digər qanunların qəbul edilməsindən bəhs edir.

Ölkədə qanunçuluq sahəsində hüquqi bazanın formalaşdırılması üçün müstəqil Azərbaycanın Konstitusiyasının qəbul olunmasına zəruri ehtiyac yaranmışdı. Müdrik şəxsiyyət yeni Konstitusiya layihəsinin hazırlanmasını öz üzərinə götürmüş və bununla bağlı xüsusi yaradılmış komissiyaya şəxsən özü rəhbərlik etmişdir. 1995-ci ilin noyabrında ümumxalq (referendum) səsverməsi yolu ilə müstəqil Azərbaycanın Konstitusiyası qəbul edilmişdir. Dahi siyasi xadim Heydər Əliyev Konstitusiyanın qəbul olunduğu günü tarixi hadisə hesab edərək demişdir: "Komissiyanın sədri kimi mən bu böyük tarixi sənədin hazırlanmasında öz şəxsi məsuliyyətimi daim dərk etmişəm, bu gün də dərk edirəm. Ona görə də bu sənədin hazırlanmasına xeyli vaxt sərf etmişəm. Haqqım var deyəm ki, çox zəhmət çəkmişəm. Hər bir kəlmənin, hər bir sözün mənasını dəfələrlə araşdırmışam, onun bu gün üçün, gələcək üçün nə qədər əsaslı olmasını dəfələrlə təhlil etmişəm. Mən çox rahatlıq hissi ilə bu layihənin altından imza atıram və bu layihəyə görə tam cavabdeh olduğumu bu gün bəyan edirəm. Hesab edirəm ki, biz Azərbaycanın bu günü, gələcəyi üçün çox böyük bir sənəd – siyasi, hüquqi sənəd yaratmışıq".

İlk dəfə olaraq, Konstitusiyamızda hüquqi dövlətlərin inkişafını şərtləndirən amillərdən biri hesab edilən hakimiyyət bölgüsü prinsipi təsbit olundu. Bu yeni, mütərəqqi Konstitusiyaya əsaslanaraq, mükəmməl hüquqi sistem formalaşdırmaq üçün Ulu Öndər qabaqcıl beynəlxalq təcrübəni, ümumbəşəri demokratik prinsipləri rəhbər tutmaqla, Azərbaycan xalqının dövlətçilik tarixi və ənənələri əsasında islahatlar aparmağa başladı. Bu məqsədlə 1996-cı ildə Hüquqi İslahat Komissiyasını yaratdı. Ümummilli Lider Hüquqi İslahat Komissiyasına rəhbərliyi bilavasitə öz üzərinə götürdü və islahatlara şəxsən rəhbərlik etdi.

1995-ci il Konstitusiyası prokurorluğu ərazi və ixtisaslaşdırılmış prokurorluqların Azərbaycan Respublikasının Baş prokuroruna tabeliyinə əsaslanan mərkəzləşdirilmiş vahid orqan kimi tanımış, onun statusunu müəyyənləşdirmişdir. Ümumiyyətlə, Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra prokurorluq orqanlarının fəaliyyətində yeni mərhələnin əsası qoyuldu. Həmin dövrdə müstəqil dövlətçiliyimizin əleyhinə olan cinayətlər, ölkənin tanınmış ictimai və dövlət xadimlərinə qarşı törədilən terror aktları, dövlət əmlakının mənimsənilməsi, digər sahələrdə baş vermiş ağır cinayət hadisələri məhz prokurorluq orqanlarının əməkdaşları tərəfindən peşəkarcasına araşdırılmış, təqsirkar şəxslər layiqli cəzalarını almışdır. 1994-cü ilin oktyabr və 1995-ci ilin mart aylarında ölkəmizdə dövlət və hərbi çevrilişlərə cəhdlər zamanı bu hadisələrlə bağlı cinayət işlərinin istintaqının aparılmasında prokurorluğun bir qrup əməkdaşı xüsusilə fərqlənmişdir.

Konstitusiyada prokurorluq orqanlarının səlahiyyətlərinin və vəzifələrinin müəyyənləşdirilməli olduğunu Heydər Əliyev də xüsusi vurğulamışdır. Ulu Öndər bu barədə demişdir: "Mən hesab edirəm ki, beləliklə, respublikamızda prokurorluq müstəqil Azərbaycanın dövlət quruluşu sistemində öz yerini tutubdur və ölkəmizin müstəqilliyinə layiqli xidmət edir. Buna görə də biz 1995-ci ildə qəbul etdiyimiz ilk Konstitusiyada prokurorluğun yerini, səlahiyyətlərini və vəzifəsini müəyyən etmişik".

Azərbaycanda insan hüquq və azadlıqlarının müdafiəsi Ulu öndər Heydər Əliyevin diqqətdə saxladığı prioritet sahələrdən biri olmuşdur. Dövlətimizin insan hüquqları sahəsində atdığı ən mühüm addımlardan biri, şübhəsiz ki, ölüm cəzasının ləğvi olmuşdur. Ölüm cəzasının ləğvi Azərbaycanın demokratik hüquqi dövlət quruculuğu yolunda olduğunu bir daha təsdiqləmişdir. 1993-cü ildən ölüm cəzasının icrasına veto qoyulması, 1998-ci ildə isə Şərqdə ilk dəfə olaraq, Azərbaycanda bu cəza növünün tamamilə ləğv edilməsi Heydər Əliyevin böyük qəlb və mənəviyyat sahibi olduğunu, şəxsiyyətcə böyüklüyünü bir daha təsdiqləyir. Bununla da Azərbaycan Şərqdə bu cəzanı ləğv edən ilk ölkə kimi tarixə düşmüşdür.

Dünya şöhrətli siyasi xadimin həyata keçirdiyi dövlət siyasətinin mahiyyətini özündə əks etdirən humanistliyin nəticəsində əfv və amnistiya təsisatları bərpa edilmişdir. 1995–2003-cü illərdə yeddi amnistiya aktı qəbul edilmiş və 32 əfv sərəncamı imzalanmışdır. Bu amnistiya aktları 77 mindən çox şəxsə şamil edilmişdir. Ümummilli Lider tərəfindən imzalanmış əfv sərəncamları ilə üç mindən artıq şəxs bağışlanaraq cəzalarından azad edilmişdir. Ulu öndər Heydər Əliyev həmçinin böyük humanistlik nümayiş etdirərək, imzaladığı əfv fərmanları ilə 1994–1995-ci illərdə dövlət çevrilişi cəhdlərində iştirak etmiş insanların da bir qismini bağışlamışdır.

İnsan hüquqlarının qorunmasına müstəsna əhəmiyyət verən Ümummilli Liderin 1998-ci ildə imzaladığı "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərmanı ilə bu sahədə həyata keçirilən tədbirlərin istiqaməti və konsepsiyası səhih müəyyən edilmiş, insan hüquqları məsələsi ümumdövlət səviyyəsinə qaldırılmışdır.

Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra prokurorluq orqanlarının fəaliyyətində yeni bir dövr başlamışdır. Prokurorluq demokratik cəmiyyətə uyğun yenidən qurulmuş, onun əsas funksiyası cinayət təqibini həyata keçirmək və çəkişmə prinsipinə tam uyğun olaraq dövlət ittihamını müdafiə etməkdən ibarət olmuşdur. Ümummilli Lider eyni zamanda prokurorluq orqanları qarşısında mühüm vəzifələr də qoymuşdur: "Belə bir dövrdə Azərbaycan Prokurorluğu Konstitusiyada müəyyən olunmuş səlahiyyətlərini həyata keçirərək ölkəmizin dövlətçiliyinin qorunmasına və möhkəmlənməsinə xidmət etməlidir, qanunun

aliliyini təmin etməli və qanunun aliliyinə riayət etməlidir, Azərbaycan vətəndaşlarının hüquq və azadlıqlarının keşiyində durmalıdır. Bütün bunlar hamısı Konstitusiyada öz əksini tapıbdır. Məmnuniyyətlə qeyd edirəm ki, Azərbaycan Prokurorluğu son illərdə bu vəzifələri uğurla yerinə yetirir".

Azərbaycanın beynəlxalq aləmə inteqrasiyası, əlaqələrinin genişləndirilməsi və əməkdaşlığın möhkəmləndirilməsi üçün qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsi mühüm vəzifələrdən biri idi. Tarixi şəxsiyyət Heydər Əliyevin rəhbərliyi ilə bu istiqamətdə hüquqi bazanın zənginləşdirilməsi üçün mühüm əhəmiyyətli qanunların qəbul edilməsinə nail olunmuşdur. Azərbaycan Respublikasının Prokurorluğu qanunun aliliyinə, insan hüquq və azadlıqlarının təmin olunmasına, cinayətkarlıqla mübarizəyə, qanunçuluğun və hüquq qaydasının qorunmasına xidmət edən orqana çevrilməklə sivil və demokratik inkişaf yolu keçmişdir. Bu dövr ərzində qəbul olunmuş çoxsaylı qanun və məcəllələr də bu məqsədə xidmət edirdi. "Məhkəmələr və hakimlər haqqında", "Konstitusiya məhkəməsi haqqında", "Prokurorluq haqqında", "Prokurorluq orqanlarında qulluq keçmə haqqında", "Polis haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında" qanunlar, Cinayət, Cinayət-Prosessual, Cəzaların İcrası, Mülki, Mülki Prosessual, İnzibati Xətalar məcəllələri və bir sıra mühüm normativ-hüquqi aktlar bütövlükdə demokratik cəmiyyətdə prokurorluğun yeri və rolunu müəyyən etmişdir.

Ulu Öndərin ölkəyə rəhbərlik etdiyi müddətdə prokurorluqda 1993–2003-cü illəri əhatə edən proseslər, prokurorluğa aid konstitusion normalar da bu fəsildə öz əksini tapmışdır.

**Kitabın III fəsli "Azərbaycan Prokurorluğunda "Heydər Əliyev İli" adlanır.** Məlum olduğu kimi, Prezident İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında 2023-cü il "Heydər Əliyev İli" elan edilmişdir. Azərbaycanın əsas qurucularından olan və tarixə öz imzasını atan dahi şəxsiyyət Heydər Əliyev əbədi olaraq xalqın yaddaşında və qəlbində yaşayır. Heydər Əliyevin ali bir rəhbər kimi Azərbaycan üçün etdikləri xalq tərəfindən unudulmur, cild-cild əsərlərin, film və kitabların əsas mövzusuna çevrilir. Xalq onun üçün yaşayanları heç vaxt yaddan çıxarmır. Dövlət başçımızın imzaladığı sərəncamda da qeyd edildiyi kimi, Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir. Məhz bu baxımdan Ulu Öndərin 100 illik yubileyi böyük təntənə ilə qeyd olunmaqdadır.

Prokurorluq orqanlarında da bu məqsədlə silsilə tədbirlər keçirilib və bu gün də davam edirilir. Həmin tədbirlərdə xalqımızın milli azadlıq və istiqlaliyyət tarixində xilaskar rolunu oynayan Heydər Əliyevin mənalı və şərəfli həyat yolu, ölkə müstəqilliyinə, ərazi bütövlüyünə və dövlətçiliyə qarşı yönəlmiş qəsdlərin qarşısının alınmasındakı rolu barədə geniş məlumat verilir. Ulu Öndərin dövlətçiliyin qorunması, iqtisadiyyatın inkişafı, məhkəmə-hüquq islahatları, milli prokurorluq orqanlarının təşəkkülündəki xidmətlərindən də bəhs olunur. Həmçinin Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, ölkə Prezidenti İlham Əliyev tərəfindən və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın yaxından iştirakı ilə həyata keçirilən uğurlu daxili və xarici siyasət nəticəsində dövlətimizin daha da qüdrətlənməsi, ərazi bütövlüyünün bərpa olunması, xalqın sosial rifah halının yaxşılaşdırılması diqqətə çatdırılır. Tarixi qəhrəmanlıq salnamələri ilə zəngin olan Azərbaycan xalqı Ulu öndər Heydər Əliyevin siyasi irsini və ideyalarını daim yaşadacaq, nəsillərdən-nəsillərə ötürəcəkdir.

Bəli, bu gün Azərbaycan Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan strategiyanın Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində dünyanın inkişaf etmiş dövlətləri ilə bir sırada addımlayır. Bu siyasi kursun ləyaqətlə davam etdirilməsi Azərbaycanı dünyada söz sahibinə çevirmişdir. 2020-ci il sentyabrın 27-də işğalçı Ermənistanın genişmiqyaslı təxribatları müharibəyə çevriləndə Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuz torpaqlarımızın işğaldan azad edilməsi, məcburi köçkünlərin öz torpaqlarına qayıtması və ədalətin bərpası üçün Zəfər yürüşünə başladı. Ermənistan ordusu Azərbaycan Silahlı Qüvvələri qarşısında cəmi 44 gün davam gətirə bildi. Çıxış yolu tapmayan Ermənistanın siyasi və hərbi rəhbərliyi kapitulyasiya aktını imzalamaq məcburiyyətində qaldı. Bu qələbədən sonra Azərbaycanın dünya birliyindəki mövqeyi daha da möhkəmləndi və nüfuzu artdı. Lakin işğalçı ölkə bundan ibrət götürmədi və xarici havadarlarının fitvası ilə təxribatçı əməllərindən əl çəkmədi və bu dəfə mina terroruna əl atdı. Bununla yanaşı, Qarabağda 15 mindən artıq qeyri-qanunu silahlı qruplaşma yerləşdirdi. Həm mina terroru, həm də qeyri-qanuni silahlı birləşmələrin təxribatlarının qarşısını almaq üçün Qarabağda antiterror əməliyyatı keçirmək zərurəti yarandı. Bu dəfə silahlı ermənilər və separatçılar cəmi bir gün davam gətirə bildi. Azərbaycan bununla da ərazi bütövlüyünü tam bərpa etdi və işğaldan azad edilmiş bütün ərazilərimizdə Azərbaycan Bayrağı dalğalandı. Qürurla demək olar ki, bu tarixi Qələbədə prokurorluq işçilərinin də zəhməti olmuşdur.

**Kitabın IV fəsli "Heydər Əliyev prokurorluq əməkdaşlarının xatirələrində" adlanır.** Ulu Öndərin hüquqi, sivil, demokratik dövlət quruculuğu yolundakı gərgin siyasi fəaliyyəti prokurorluq orqanlarında da canlanma yaratdı və yeni inkişaf mərhələsinin başlanmasına səbəb oldu. Böyük tarixi şəxsiyyət və siyasi xadim bu işlərin həyata keçirilməsində prokurorluq orqanlarına, bu sahədə çalışan prokurorluq əməkdaşlarına inanır və güvənirdi. Müdrik şəxsiyyət Heydər Əliyev prokurorluq peşəsini yüksək dəyərləndirir və bu sahənin əməkdaşlarına böyük ümid bəsləyirdi. Ulu Öndər bunu çıxışlarının birində də diqqətə çatdıraraq demişdir:"Prokurorluq peşəsi hörmətli peşədir. Hörmətli, şərəfli peşədir. Müstəqil dövlət kimi, Azərbaycan keçmiş tarixindən, ənənələrindən istifadə edərək yeni dövlət quruculuğu prosesini həyata keçirir. O cümlədən müstəqil Azərbaycanın prokurorluğu yaranır və inkişaf edir. Bu orqanın inkişaf etməsində xidmət göstərən hər bir Azərbaycan vətəndaşı şərəfli iş görür. Mən arzu edirəm ki, hər bir prokurorluq işçisi öz peşəsinin hörmətini yüksək saxlasın, öz peşəsinin adını qorusun. Öz peşəsinin adını qoruyaraq öz şəxsi adını qoruyacaqdır. Ümid edirəm ki, Azərbaycan prokurorları öz üzərinə düşən bu məsuliyyəti dərk edirlər və bundan sonra öz işlərini daha da mütəşəkkil aparacaqlar".

Azərbaycan Prokurorluğunun bugünkü vəziyyətdə mövcudluğuna, müasirləşmə yolunda qazandığı uğurlarda və yeni inkişaf mərhələsinə qədəm qoymasında Heydər Əliyev irsinə sadiqlik mühüm rol oynamışdır. Baş Prokurorluğun Elm-Tədris Mərkəzində Azərbaycan Respublikası Prokurorluq Orqanlarının Veteran və Pensiyaya Çıxmış İşçiləri İctimai Birliyi mütəmadi olaraq Ulu Öndəri yad edir, müxtəlif tədbirlər keçirir. Tədbirlərdə "Şərqdə ilk dəfə Azərbaycanda ölüm cəzasının ləğvi Ümummilli lider Heydər Əliyev humanizminin təntənəsidir", "Ölüm hökmünün ləğv edilməsi ilə bağlı beynəlxalq sənədlər və öhdəliklər", "Humanizm prinsipi Azərbaycanda həyata keçirilən məhkəmə-hüquq islahatlarının başlıca əsaslarından biri kimi" və digər mövzularda çıxışlar və ətraflı müzakirələr Ulu öndər Heydər Əliyevin veteran prokurorluq işçilərinin qəlbində əbədi yaşayacağını təsdiqləyir. Veteran prokurorluq işçiləri məhz tarixdə ilk dəfə "Prokurorluq haqqında", "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" və prokurorluğun fəaliyyətini tənzimləyən digər qanun və normativ aktların, digər mühüm əhəmiyyətli sənədlərin qəbul olunmasının Heydər Əliyevin adı ilə bağlı olduğunu vurğulayırlar.

Prokurorluğun veteranları Ümummilli lider Heydər Əliyev tərəfindən təməli qoyulmuş və müasir dövrdə Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən sosial müdafiə siyasətini, bu gün dövlətin yeni nəsil hüquq-mühafizə orqanlarına, prokurorluğa göstərilən diqqət və qayğını yüksək qiymətləndirirlər.

Dövlətçilik salnaməmizdə misilsiz izlər qoymuş, böyük azərbaycanlı Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Xalqımız onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır. Heydər Əliyevin zəngin və çoxşaxəli irsi xalqımızın milli sərvətidir. İnanırıq ki, Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunması ilə əlaqədar onun prokurorluq orqanlarının inkişafı ilə bağlı çoxşaxəli irsinin gələcək nəsillərə çatdırılması, prokurorluq orqanlarının fəaliyyətinin ictimaiyyət arasında təbliği məqsədilə ərsəyə gələn bu kitab geniş oxucu kütləsi tərəfindən maraqla və rəğbətlə qarşılanacaq.

**Kamran Əliyev**
*Azərbaycan Respublikasının Baş prokuroru,*
*I dərəcəli dövlət ədliyyə müşaviri*



I

FƏSİL

# HEYDƏR ƏLİYEV VƏ HÜQUQİ DÖVLƏT QURUCULUĞU



**Hörmətli oxucu,**

**“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun 18-ci və 19-cu maddələrinə uyğun olaraq müəllifik hüququnun qorunması məqsədilə əsərin tam mətni ilə Kitabxananın oxu zalında tanış ola bilərsiniz.**